# Abşeron yarımadasının folklor nümunələri

Mövzu, janr, süjet quruluşu, obrazlar sistemi, ideya və s. baxımdan Azərbaycan folklorşünaslığının tərkib hissəsi olan Bakı-Abşeron yarımadasının folklor nümunələri son illər AMEA-nın alim-mütəxəssisləri tərəfindən tədqiqata cəlb olunub. Oxucularda və araşdırıcılarda böyük maraq doğuran bu folklor nümunələrinin bir hissəsi "Bakı folklor nümunələri-1" kitabında ilyarım bundan öncə işıq üzü görmüşdür.




Folklor nümunələrinin ikinci hissəsi - "Bakı folklor örnəkləri" isə "Elm və təhsil" nəşriyyatı tərəfindən buraxılmışdır. Tədqiqata ilk dəfə cəlb olunan Abşeron yarımadası folklorunun toplanması və nəşrinin layihə rəhbəri AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru Muxtar Kazımoğlu, tərtibçilər filologiya üzrə fəlsəfə doktoru Rza Xəlilov və Afaq Ramazanovadır. Birinci kitabda olduğu kimi, ikinci kitabın hazırlanmasında da arxiv və fondlarda, köhnə jurnal və kitab səhifələrində yer almış materiallar bir araya gətirilərək sistemləşdirilmişdir. Bunun üçün Azərbaycan dövri mətbuatının böyük bir hissəsi səhifə-səhifə izlənilmiş, XIX əsrdən üzü bəri qəzet və jurnallar, elmi-kütləvi nəşrlər ciddi şəkildə araşdırılmışdır. Materiallardan da göründüyü kimi, son 150 ildə Abşeron yarımadası xalq təsərrüfatının, xüsusilə neft-qaz sənayesinin inkişafının nəticəsi olaraq müxtəlif millətlərin, dinlərin və mədəniyyətlərin qaynayıb-qarışdığı yer olmuşdur. Bəzi siyasi, iqtisadi və sosial səbəblərdən Bakıya edilən kütləvi köçlər regionun folkloruna əlavə rənglər qatmış, yeni mövzu və məzmunla zənginləşdirmişdir. Bu proses indi də davam edir.

Kitabın "Qeyd və izahlar" bölümündə görkəmli dilçi-alim M. Şirəliyevin Bakı dialekti ilə bağlı topladığı materiallar, Bakı-Abşeron folklorunun tanınmış tədqiqatçısı, tarix üzrə elmlər doktoru Təvəkkül Səlimov-Şağaninin toplamaları geniş yer tutur. "Bulaqlar" bölümündə milli folklorumuzun bir çox janrları - atalar sözləri, tapmacalar, bayatılar və nağıllar zənginliyi ilə diqqət çəkir. Burada Bakı-Abşeron folklorunun fədakar araşdırıcısı Ə.Tahirovun topladığı nümunələr Azərbaycan nağıllarının ən gözəl və xarakterik örnəklərini təşkil edir.

İctimai rəydə və gənc tədqiqatçılar tərəfindən maraqla qarşılanan "Bakı folklor örnəkləri"nin elmi redaktoru tarix üzrə elmlər doktoru Təvəkkül Səlimov-Şağanidir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***